## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu (bundan sonra - İnstitut) Azərbaycan Milli Elmlər Akademiyasının (bundan sonra – AMEA) nəzdində fəaliyyət göstərən dövlət elmi müəssisəsidir. İnstitutun yaranma tarixi 1933-cü il martın 22-dən hesablanır. 1945-ci ildə Azərbaycan SSR EA yarandıqdan sonra Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu onun tərkibinə daxil edilmişdir.

1.2. İnstitut AMEA-nın strukturuna daxil olan elmi tədqiqat institutudur və AMEA-nın Humanitar Elmlər Bölməsinin (bundan sonra – HEB) tərkibindədir.

1.3. AMEA dövlətin adından İnstitutun təsisçisi kimi çıxış edir və HEB vasitəsilə onun fəaliyyətinə elmi-metodiki və elmi-təşkilati rəhbərliyi və ümumi nəzarəti həyata keçirir.

1.4. İnstitut qeyri-kommersiya hüquqi şəxsdir və fəaliyyəti Azərbaycan Respublikası-nın ərazisini əhatə edir.

1.5. İnstitut öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbay-can Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, “Elm haqqında” Azərbaycan Respublikasının Qanununu və digər qanunları, Azərbaycan Respublikası Prezidentinin fər-man və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, AMEA-nın Nizamnaməsini və bu Nizamnaməni rəhbər tutur.

1.6. İnstitut müstəqil balansa, xəzinə və bank hesablarına, istifadəsində olan dövlət əmlakına, öz adı həkk olunmuş möhürə, rəsmi loqo və emblemə, ştampa və blanklara malikdir.

1.7. Fəaliyyət məqsədlərinə çatmaq üçün İnstitut öz adından əqdlər bağlayır, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə edir, vəzifələr daşıyır, məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış edir.

1.8. İnstitut öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət, yerli özünüidarəetmə orqanları, ictimai və beynəlxalq qurumlar və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət göstərir.

1.9 İnstitut istifadəsində olan dövlət əmlakının saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi, habelə öz öhdəlikləri üçün məsuliyyət daşıyır.

1.10. İnstitut 28.11.1995-ci il tarixdə D-860 nömrə ilə Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

1.11. İnstitutun hüquqi ünvanı: Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, V mərtəbə.

## 2. İNSTİTUTUN FƏALİYYƏTİNİN MƏQSƏDİ, İSTİQAMƏTLƏRİ VƏ VƏZİFƏLƏRİ

2.1. İnstitutun fəaliyyətinin əsas məqsədi ədəbiyyatşünaslıq sahəsində Azərbaycan Respublikasının ictimai-mədəni-mənəvi tərəqqisinə, onun vətəndaşlarında milli şüurun və milli dövlətçilik təfəkkürünün daha da inkişaf etdirilməsinə yönəlmiş fundamental elmi tədqiqatların təşkili və aparılmasıdır.

2.2. İnstitut aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.2.1. Azərbaycan ədəbiyyatının inkişaf mərhələlərini, klassik və müasir sənətkarların yaradıcılığını, şifahi və yazılı abidələri araşdırmaq, bu abidələri nəşr və təbliğ etmək;

2.2.2. müasir ədəbi prosesi elmi əsaslarla izləmək və istiqamətləndirmək;

2.2.3. Azərbaycan mühacirət ədəbiyyatını tədqiq və nəşr etmək;

2.2.4. ədəbiyyat nəzəriyyəsi sahəsində araşdırmalar aparmaq;

2.2.5. xarici ölkə xalqlarının ədəbiyyatlarını və qarşılıqlı ədəbi əlaqələri araşdırmaq və ümumiləşdirmək;

2.2.6. Azərbaycan ədəbiyyatının beynəlxalq əlaqələrini öyrənmək və proqnozlaşdırmaq;

2.2.7. milli mətbuat tarixini tədqiq etmək;

2.2.8. Azərbaycan və dünya ədəbiyyatşünaslığının tarixini, aparıcı məktəblərini və müasir təmayüllərini araşdırmaq.

2.3. Məqsədlərinə uyğun olaraq, İnstitut aşağıdakı vəzifələri yerinə yetirir:

2.3.1. ədəbiyyatşünaslıq sahəsində fundamental elmi tədqiqat işlərinin prioritet istiqamətlərini müəyyənləşdirmək, onların Azərbaycan Respublikasının mədəni-mənəvi inkişafına yönəltmək;

2.3.2. profilinə uyğun olaraq dünya elminin inkişaf tendensiyalarını, burada cərəyan edən prosesləri ardıcıl olaraq izləmək, onları sistemli təhlil etmək;

2.3.3. dünya elmi məkanına inteqrasiya məqsədilə xarici ölkələrin aparıcı elmi mərkəzləri ilə elmi-yaradıcılıq əlaqələri qurmaq, müqavilələr imzalamaq;

2.3.4. Azərbaycan ədəbiyyatşünaslığının inkişafı üçün dünya ədəbiyyatşünaslıq elminin nailiyyətlərindən səmərəli istifadə etmək məqsədi ilə beynəlxalq proqram və layihələrdə iştirak etmək;

2.3.5. aparılan elmi tədqiqat işlərinin proqramlarını daim yeniləndirmək və müasir ədəbiyyatşünaslıq elmi sahəsində inkişafın prioritet istiqamətlərinə uyğun şəkildə tərtib etmək;

2.3.6. elmi tədqiqatların yazıçı və şairlərin həyatı və yaradıcılığının tədqiqi və kompleks problem mövzular üzrə aparılmasını təşkil etmək, onların monitorinqini keçirmək, nəticələrini araşdırmaq, əldə olunmuş nailiyyətləri inkişaf etdirmək;

2.3.7. gənclərlə işə xüsusi diqqət yetirmək, onların sıralarından müasir elmi təfəkkürə malik yüksək ixtisaslı elmi kadrlar hazırlamaq, elm təşkilatçıları yetişdirmək;

2.3.8. dövlətin elmi və elmi-texniki siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak etmək, müvafiq qərarlar üzrə dövlət proqramları layihələrinin ekspertizasını aparmaq;

2.3.9. sahələrarası tədqiqat işlərini elmin prioritet istiqaməti kimi dəyərləndirərək, ali məktəblərin və digər elmi müəssisələrin uyğun kafedraları və şöbələri ilə əməkdaşlığı inkişaf etdirmək;

2.3.10. İnstitut işçilərinin sosial-məişət sahəsinə aid problemləri ilə məşğul olmaq, onların həllinə yönəlmiş tədbirlər həyata keçirmək;

2.3.11. Azərbaycan Respublikasının müvafiq dövlət proqramlarına uyğun, AMEA Rəyasət Heyəti tərəfindən İnstituta həvalə olunmuş və qanunvericiliklə qadağan olunmayan digər vəzifələri yerinə yetirmək.

2.4. Bu Nizamnamədə nəzərdə tutulmuş vəzifələri həyata keçirmək üçün İnstitut:

2.4.1. elmi araşdırmalar aparır, müxtəlif konfranslar, kurslar və seminarlar, dəyirmi masa və görüşlər, sərgilər təşkil edir;

2.4.2. məqsədləri və fəaliyyəti barədə məlumatı sərbəst yayır, qanunvericiliyə uyğun qaydada mətbu nəşrlər təsis edir;

2.4.3. Azərbaycan Respublikasının aidiyyəti dövlət, bələdiyyə orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

2.4.4. apardığı elmi tədqiqat işlərinin nəticələrini Azərbaycan Respublikasının elmi, mədəni-mənəvi inkişafına yönəldir;

2.4.5. dünyanın aparıcı elmi mərkəzləri və universitetləri ilə, eləcə də Azərbaycanın müvafiq elmi müəssisələri ilə elmi və elmi-texniki əməkdaşlıq üzrə əlaqələr yaradır, elmi qurultaylar, sessiyalar, simpoziumlar təşkil edir, onların işində iştirak edir;

2.4.6. elmi işçilərin dünyanın aparıcı elmi mərkəzlərində məqsədli təcrübə keçməsi haqqında AMEA Rəyasət Heyətinə təkliflər verir;

2.4.7. elmi tədqiqat işlərini müsabiqə prinsipləri əsasında təşkil edir, alimlərin elmi-yaradıcılıq əzminin artırılmasına dair həvəsləndirici tədbirlər görür;

2.4.8. fəaliyyət göstərdiyi elm sahəsi üzrə elm tutumlu subyektlərin yaradılmasına dair təkliflər hazırlayır;

2.4.9. elmi tədqiqatların kompleks problem mövzular üzrə aparılmasını təşkil edərək, onların mütəmadi ekspertizasını aparır, qanunverici təkliflər hazırlayır;

2.4.10. institutda aparılan elmi tədqiqat işlərinin nəticələrini təqdim və təbliğ etmək məqsədi ilə elmi əsərlər toplusunu nəşr etdirir, elmi-populyar nəşrlərin tərtib olunmasında iştirak edir;

2.4.11. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yenilənməsini təmin edir;

2.4.12. elmi infrastrukturunun təkmilləşdirilməsini, elmin maddi-texniki bazasının müasirləşdirilməsini və bu sahədə informasiya təminatı sistemlərinin elektron formaya keçirilməsini təmin edir;

2.4.13. İnstitutun profili üzrə sahibkarlıq və innovasiya fəaliyyətini təşkil edir;

2.4.14. öz əməkdaşlarının xarici ölkələrin akademiyalarına, elmi mərkəzlərinə və ali təhsil müəssisələrinə yaradıcılıq ezamiyyətlərinə, xüsusən gənc alim və mütəxəssislərin ixtisasartırmaya göndərilməsini təmin edir;

2.4.15. elmi işçilərin sosial problemlərini araşdırır, onların həllinə dair AMEA Rəyasət Heyəti qarşısında vəsatət qaldırır.

## 3. İNSTİTUTUN HÜQUQLARI

3.0. İnstitut aşağıdakı hüquqlara malikdir:

3.0.1. elmi tədqiqat bazasını inkişaf etdirmək;

3.0.2. xarici ölkə təşkilatları və alimləri ilə müqavilə və lisenziya sazişləri bağlamaq;

3.0.3. müasir tələblərə cavab verən infrastruktur yaratmaq məqsədilə xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlıq etmək;

3.0.4. xərclərin smetasını müəyyən və təsdiq etmək, vəsait almaq və istifadə etmək (o cümlədən, xarici valyuta), öz vəsaitindən sosial məsələlərin həlli fondu və digər fondlar yaratmaq;

3.0.5. dünya elmi məkanında tanınmaq və reytinqini yüksəltmək məqsədilə beynəl-xalq akkreditasiyadan keçmək;

3.0.6. büdcədənkənar vəsaitləri hesabına elmi işçilərin və digər əməkdaşların əmək haqlarına əlavələr və sosial təminatlar (tibbi xidmət, istirahət və digər) müəyyən etmək;

3.0.7. əldə etdiyi büdcədənkənar vəsaitlərdən maddi-texniki bazanın gücləndirilməsi, elmi infrastrukturun təkmilləşdirilməsi, işçilərin maddi həvəsləndirilməsi və digər məqsədlər üçün sərbəst istifadə etmək;

3.0.8. Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis etmək;

3.0.9. dövriyyəsi qanunla qadağan olunmayan elmi nəticələrin və elmi məhsulların ölkə daxilində və xarici bazarlarda alqı-satqısını sərbəst həyata keçirmək;

3.0.10. sifarişlər əsasında birgə elmi tədqiqatlar aparmaq, layihə və proqramlar hazırlamaq, məsləhət və qanuna uyğun olaraq digər xidmətlər göstərmək;

3.0.11. magistratura, doktorantura və dissertantlıq yolu ilə yüksək ixtisaslı kadrlar hazırlamaq;
3.0.12. ödənişli əsaslarla kadr hazırlamaq;
3.0.13. Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis etmək;
3.0.14. qanunvericiliklə müəyyən edilmiş sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq;
3.0.15. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;
3.0.16. istifadəsində olan dövlət əmlakı barəsində hüquqlar həyata keçirmək;
3.0.17. qanunvericiliklə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

## 4. İNSTİTUTUN ELMİ İŞÇİLƏRİNİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

4.1. İnstitutda baş elmi işçi, aparıcı elmi işçi, böyük elmi işçi, elmi işçi, kiçik elmi işçi vəzifələri müəyyən edilir.
4.2. İnstitutda elmi işçi vəzifələrinin tutulması İnstitutun Elmi şurasında müsabiqə yolu ilə həyata keçirilir. Elmi işçilər gizli səsvermə yolu ilə seçilirlər. Elmi şurada seçilmiş elmi işçilər Elmi şuranın qərarı ilə təsdiq edilir.
4.3. Elmi şuranın qərarı ilə vəzifəyə təyin edilən elmi işçilərlə İnstitutun direktoru arasında Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müddətli əmək müqaviləsi bağlanılır.
4.4. İnstitutun elmi işçisi aşağıdakı hüquqlara malikdir:
4.4.1. elmi nəticələrin müəllifi olmaq, əqli mülkiyyət hüquqlarının tanınması və qorunması üçün vəsatət qaldırmaq;
4.4.2. müəllifi və ya hüquqi sahibi olduğu elmi nəticələrin tətbiqindən gəlir əldə etmək və müəllif qonorarı almaq;
4.4.3. elmi fəaliyyətin obyektiv qiymətləndirilməsinə nail olmaq, mükafatlar almaq, imtiyazlardan istifadə etmək;
4.4.4. elmi nəticələrə əsaslanaraq, elmi dərəcə və elmi ad almaq üçün müraciət etmək;
4.4.5. elmi konfrans və simpoziumlarda, qurultay və seminarlarda, digər kollektiv müzakirələrdə iştirak etmək;
4.4.6. elmi tədqiqatların dövlət büdcəsinin vəsaitləri və digər qanuni mənbələr hesabına maliyyələşdirilməsi üzrə müsabiqələrdə iştirak etmək;
4.4.7. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, beynəlxalq elmi əməkdaşlıqda iştirak etmək (xarici ölkələrdə təcrübə keçmək, elmi nəticələri dərc etdirmək, birgə elmi tədqiqatlar aparmaq və digər);
4.4.8. insana, cəmiyyətə və ətraf mühitə mənfi təsir göstərən elmi tədqiqatlarda iştirak etməkdən əsaslandırılmış şəkildə imtina etmək;
4.4.9. birgə elmi fəaliyyət barədə müqavilə bağlamaq;
4.4.10. elmi ixtisas səviyyəsini artırmaq və müsabiqələrdə iştirak etmək;
4.4.11. ödənişli yaradıcılıq məzuniyyətindən istifadə etmək;
4.4.12. elmi tədqiqatların aparılması üçün normal iş şəraiti ilə təmin olunmaq;
4.4.13. həmkarlar ittifaqlarında, assosiasiyalarda və digər ictimai birliklərdə təmsil olunmaq;
4.4.14. pedaqoji fəaliyyətlə məşğul olmaq;
4.4.15. İnstitutun tədqiqat istiqamətləri çərçivəsində və özünün elmi maraqlarına uyğun olaraq sərbəst tədqiqat istiqaməti və metodu seçmək;
4.4.16. qrant almaq və gəlir əldə etmək;
4.4.17. proqram və layihələrin elmi ekspertizasının aparılmasında, sosial-iqtisadi nəticələrin proqnozlaşdırılmasında və qiymətləndirilməsində iştirak etmək;

4.4.18. İnstitutda vəzifə tutmaq, seçkili vəzifələrə seçmək və seçilmək;

4.4.19. İstitutun fəaliyyəti barədə məlumat almaq;

4.4.20. öz mənafelərinin müdafiəsinə kömək göstərilməsi üçün İnstitutun rəhbərliyinə müraciət etmək;

4.4.21. öz hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək, İnstitutun müvafiq orqanlarına etirazını bildirmək və şikayət etmək;

4.4.22. qanunvericiliyə uyğun olaraq digər hüquqları həyata keçirmək;

4.5. İnstitutun elmi işçilərinin vəzifələri aşağıdakılardır:

4.5.1. İnstitutun Nizamnaməsinə əməl etmək;

4.5.2. AMEA-nın və İnstitutun idarəetmə və icra orqanlarının qərarlarını yerinə yetirmək;

4.5.3. İnstitutun tədbirlərində iştirak etmək;

4.5.4. əmək müqaviləsi və vəzifə təlimatı ilə müəyyən edilmiş əmək funksiyalarını və İnstitutun vəzifələrinə uyğun olaraq rəhbərlik tərəfindən verilən cari tapşırıqları yerinə yetirmək;

4.5.5. elmi fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

4.5.6. azərbaycançılıq ideyalarını təbliğ etmək, milli-mənəvi və ümumbəşəri dəyərləri, milli ənənələri dəstəkləmək və inkişaf etdirmək;

4.5.7. elmi fəaliyyəti həyata keçirərkən dövlət mənafeyini qorumaq, insanların hüquq və azadlıqlarına, onların həyatına və sağlamlığına, habelə ətraf mühitə zərər vurmamaq;

4.5.8. elmi bilikləri və ölkənin sosial-iqtisadi və ictimai-mədəni həyatında baş verən prosesləri və əldə edilən nəticələri elmi cəhətdən əsaslandıraraq təhlil və təbliğ etmək;

4.5.9. elmi proqram və layihələrin, elmi nəticələrin, eksperimental tədqiqatların ekspertizasını obyektiv həyata keçirmək;

4.5.10. elmi etikaya riayət etmək, plagiata yol verməmək, yaradıcı, ləyaqətli, məsuliyyətli, müstəqil və təşəbbüskar olmaq;

4.5.11. daim öz elmi səviyyəsini, bilik və təcrübəsini yüksəltmək, elmi araşdırmalara yaradıcı (kreativ) yanaşmaq, innovasiyaları dəstəkləmək, elmi məqalələr nəşr etdirmək;

4.5.12. attestasiyadan keçmək;

4.5.13. əmək və icra intizamına riayət etmək.

4.5.14. məxfi qrif altında yerinə yetirilən elmi işlərin mövzu və nəticələrini yaymamaq;

4.5.15. qanunvericiliyə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

4.6. İnstitutun elmi işçisinin İnstitutun müvafiq orqanlarının qərarlarından narazı olduqda onun ali idarəetmə orqanına və məhkəməyə şikayət etmək hüququ vardır.

## 5. İNSTİTUTDA ƏMƏYİN ÖDƏNİLMƏSİ QAYDALARI

5.1. İnstitutun əməkdaşlarının əmək haqları Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə nəzərdə tutulmuş vəzifə maaşlarından və vəzifə maaşlarına əlavələrdən ibarətdir.

5.2. İnstitutda çalışan rəhbər vəzifə tutan işçilərin, elmi işçilərin və mütəxəssislərin vəzifə (tarif) maaşları və əməkhaqqı onların funksional vəzifələri, peşə xüsusiyyətləri, elmi dərəcəsi, elmi adları və iş stajı nəzərə alınmaqla təyin edilir və ödənilir.

5.3. İnstitutun struktur bölmələrində müvəqqəti çalışan elmi işçilərin əməyinin ödənilməsi əmək müqaviləsi əsasında həyata keçirilir.

5.4. Elmi və elmi-pedaqoji fəaliyyət sahəsində çalışan elmi dərəcəsi və elmi adı olan şəxslərin vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə qanunvericiliklə müəyyən edilmiş məbləğdə əlavələr ödənilir.

5.5. İnstitutda çalışan AMEA-nın həqiqi və müxbir üzvlərinə qanunvericiliklə müəyyən edilmiş məbləğdə aylıq rütbə maaşları verilir.

5.6. İnstitutda çalışan elmi işçilərə və doktorantlara Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq, ödənişli yaradıcılıq məzuniyyəti verilir.

5.7. İnstitut büdcədənkənar vəsaitləri hesabına elmi işçilərin və digər əməkdaşların əmək haqlarına əlavələr və sosial təminatlar (tibbi xidmət, istirahət və digər) müəyyən etmək hüququna malikdir.

5.8. İnstitutda çalışan əcnəbi alimlərə və tədqiqatçılara əməkhaqqı əmək müqavilələri əsasında müəyyən edilir.

5.9. Elmi işçilərin funksional vəzifələrindən kənar yerinə yetirdikləri elmi, tədris və təşkilati işlərin haqqı sifarişçi tərəfindən ödənilir.

5.10. Elmi əsərlərinə beynəlxalq miqyasda daha çox istinad edilən müəlliflər İnstitut tərəfindən daxili imkanlar hesabına peşəkar fəaliyyət və xidmətlərinə görə mükafatlandırılır.

5.11. Təsir gücünə (impakt faktoruna) malik olan, istinad indeksli jurnallarda çap olunan hər bir elmi məqaləyə görə müəllifə (müəlliflərə) İnstitutun, eləcə də elm və innovasiya fondlarının vəsaitləri hesabına birdəfəlik mükafat (qonorar) verilir.

## 6. İNSTİTUTUN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏETMƏ ORQANLARI

6.1. İnstitutun strukturu direktor tərəfindən hazırlanır, İnstitutun Elmi Şurasında qəbul olunaraq AMEA HEB-in qərarı və təqdimatı əsasında AMEA Rəyasət Heyəti tərəfindən təsdiq edilir.

6.2. İnstitutda müvəqqəti elmi kollektivlərin yaradılması, fəaliyyəti, yenidən təşkili və ləğvi qaydaları bu Nizamnamənin 6.1-ci bəndində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

6.3. İnstitutun fəaliyyətinə onun direktoru rəhbərlik edir. Direktor qüvvədə olan normativ-hüquqi aktlara əsasən və İnstitutun profilinə uyğun olaraq elm sahəsində yeni nəticələr əldə edilməsi, yeni mütərəqqi layihələrin həyata keçirilməsi məqsədilə İnstitutun elmi, elmi-təşkilati və təsərrüfat fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir.

6.4. İnstitutun direktoru elmi təşkilatçılıq təcrübəsi, bu sahədə sanballı elmi nailiyyətləri olan namizədlər sırasından AMEA HEB-in ümumi yığıncağında gizli səsvermə yolu ilə 5 (beş) il müddətində seçilir və AMEA Rəyasət Heyətinin qərarı ilə təsdiq olunur. Elmi bölmədə seçki baş tutmadıqda AMEA Rəyasət Heyətinin qərarı ilə AMEA prezidenti tərəfindən İnstitutun direktoru vəzifəsini müvəqqəti icra edən təyin edilir. İnstitut direktorunun təkrar seçkisi müəyyən olunmuş qaydada növbəti 1 (bir) təqvim ili ərzində keçirilməlidir. İnstitutun direktoru qanunla müəyyən olunmuş hallarda və qaydada AMEA Rəyasət Heyətinin qərarı ilə tutduğu vəzifədən vaxtından əvvəl azad oluna bilər.

6.5. İnstitutun direktoru vəzifəsinə namizədlərin irəli sürülməsi hüququna İnstitutun Elmi Şurası, elmi bölmənin bürosu, AMEA Rəyasət Heyəti malikdir.

6.6. AMEA-nın həqiqi və müxbir üzvləri institutun direktoru vəzifəsinə namizədlər irəli sürə bilərlər.

6.7. İnstitutun direktoru İnstitutun qarşısında duran məqsəd və vəzifələrin həyata keçirilməsini təmin edir, İnstitutu dövlət qurumları və ictimai təşkilatlarda təmsil edir, onun adından etibarnamələr verir, qanunvericiliyə uyğun olaraq digər təşkilati-sərəncamverici funksiyaları yerinə yetirir. Direktor İnstitutun fəaliyyəti barədə müəyyən olunmuş qaydada kollektiv, Elmi Şura, elmi bölmənin bürosu və AMEA Rəyasət Heyəti qarşısında hesabat verir.

6.8. İnstitutun direktoru rəhbərlik etdiyi elmi müəssisənin elmi istiqamətinə uyğun olaraq yeni struktur bölmələrinin yaradılması, elmi əhəmiyyətini itirmiş srtuktur bölmələrinin ləğv edilməsi ilə bağlı təkliflərlə AMEA HEB-in bürosu və AMEA Rəyasət Heyəti qarşısında vəsatət qaldırır.

6.9. İnstitutun ali idarəetmə orqanı onun Elmi Şurasıdır. Elmi Şura kollegial orqandır, bu Nizamnaməyə uyğun olaraq öz səlahiyyətləri daxilində qərarlar qəbul edir, elmi və elmi-təşkilati tövsiyələr verir.

6.10. Elmi Şuranın tərkibi və onun dəyişdirilməsi İnstitut direktorunun və AMEA HEB-in bürosunun təqdimatı ilə AMEA Rəyasət Heyəti tərəfindən təsdiq olunur. Elmi Şuranın tərkibinə İnstitutun direktoru, direktorun elmi işlər üzrə müavinləri, elmi katib və İnstitutda işləyən AMEA-nın həqiqi və müxbir üzvləri, akademik struktur bölmələrinin rəhbərləri, İnstitut Həmkarlar İttifaqı Komitəsinin, Gənc Alim və Mütəxəssislər Şurasının təmsilçisi daxil edilir. Bir qayda olaraq Elmi Şuranın sədri İnstitutun direktoru, sədr müavini – direktorun elmi işlər üzrə müavini (müavinlərindən biri), katibi isə İnstitutun elmi katibi olur. Elmi Şuranın tərkibinə İnstitutda işləməyən görkəmli alimlər də daxil edilə bilər.

6.11. Elmi Şuranın iclasda iştirak edən üzvlərinin 50 faizdən çoxu müzakirə olunan məsələnin lehinə səs verdikdə qərar qəbul olunmuş sayılır. Elmi Şuranın iclaslarında məsələlər səsvermə yolu ilə həll olunur və bu məsələlər üzrə Elmi Şura onun üzvlərinin 2/3-si iştirak etdikdə qərar qəbul etməyə səlahiyyətlidir. Əgər bu və ya digər vakansiya üzrə bir namizəd irəli sürülmüşdürsə, həmin namizəd Elmi Şuranın iclasında iştirak edən üzvlərinin 50 faiz+1 səsini topladıqda seçilmiş hesab olunur. Seçkilər zamanı bir vakansiya üzrə 2 (iki) və ya daha artıq namizəd iştirak edərsə, səsvermə nəticəsində daha çox səs toplamış namizəd seçilmiş hesab olunur. Əgər namizədlər bərabər sayda səs toplayarsa və yaxud seçki prosesində prosedur qaydaları pozuntusu aşkar olunarsa, bu məsələ ilə əlaqədar seçki baş tutmamış hesab olunur və Elmi Şuranın qərarı ilə növbəti iclasların birində təkrar seçki keçirilir.

6.12. Elmi Şura aşağıdakı funksiyaları yerinə yetirir:

6.12.1. İnstitutun elmi fəaliyyətinin əsas istiqamətlərini müzakirə edir və müəyyən-ləşdirir;

6.12.2. İnstitutun strukturunu müəyyən edir və AMEA Rəyasət Heyəti tərəfindən təsdiq edilməsi üçün AMEA HEB-in qarşısında vəsatət qaldırır;

6.12.3. İnstitutun Nizamnaməsini və onda edilmiş dəyişiklikləri qəbul edir;

6.12.4. İnstitutun elmi-tədqiqat işlərinə ayrılmış xərclərin həcmi ilə əlaqədar məsələləri müzakirə edir;

6.12.5. elmi-tədqiqat işlərinin və elmi kadrların hazırlanması planlarının layihəsini müzakirə və təsdiq edir;

6.12.6. hər il öz iş planını və reqlamentini təsdiq edir;

6.12.7. İnstitutun elmi və elmi-təşkilati fəaliyyətinin mühüm nəticələrinin hesabatını müzakirə və qəbul edir;

6.12.8. elmi işlərin nəşr olunması, müşavirə və konfransların təşkili məsələlərini mü-zakirə edir;

6.12.9. beynəlxalq elmi əlaqələrin və nəzərdə tutulan digər işlərin maddi-texniki və maliyyə təminatı planlarını müzakirə edir;

6.12.10. xarici elmi müəssisələrlə birgə aparılan tədqiqatların yerinə yetirilməsi və İnstitutun əməkdaşlarının xarici ölkələrə elmi ezamiyyətləri haqqında hesabatı dinləyir və təsdiq edir;

6.12.11. mütəmadi olaraq elmi kadrların hazırlanması barədə məlumatları dinləyir, doktorant və dissertantların fəlsəfə və elmlər doktoru elmi dərəcəsi almaq üçün dis-sertasiya mövzularını müzakirə və təsdiq edir, onların elmi rəhbərlərini (məsləhətçilərini) təyin edir;

6.12.12. doktorantura və dissertanturaya qəbul üzrə müsabiqənin nəticələrini təsdiq üçün müvafiq elmi bölməyə təqdim edir, doktorant və dissertantların vaxtaşırı keçirilən attestasiyasının nəticələrini təsdiq edir;

6.12.13. doktorant və dissertantların təhsilin bir növündən digərinə keçirilməsi haqqında elmi bölmə qarşısında vəsatət qaldırır;

6.12.14. ən mühüm elmi əsərləri Azərbaycan Respublikasının Dövlət Mükafatına və başqa mükafatlara, həmçinin AMEA-nın görkəmli alimlərinin adına medal və mükafatlara təqdim edir;

6.12.15. ixtisas üzrə professor və dosent elmi adlarının verilməsi üçün ali attestasiya orqanı qarşısında vəsatət qaldırır;

6.12.16. elmi işçilərin attestasiyasını və işə qəbulu üzrə müsabiqələrin keçirilməsini təşkil edir;

6.12.17. Azərbaycan ədəbiyyatının araşdırılması,qarşılıqlı elmi əlaqələrin aparılması, nəşri və təbliği sahəsində sanballı xidmətləri olan xarici ölkə alimlərinə İnstitutun fəxri doktoru adını verir;

6.12.18. elmi işçilərin fəaliyyətinin stimullaşdırılması üçün qərarlar qəbul edir.

6.13. İnstitutun direktoru və Elmi Şura arasında yaranmış fikir ayrılığı müvafiq elmi bölmənin bürosu və ya AMEA-nın Rəyasət Heyəti tərəfindən həll olunur.

6.14. İnstitut direktorunun elmi işlər üzrə müavini və elmi katibi direktorun və AMEA HEB-in bürosunun təqdimatı əsasında AMEA Rəyasət Heyəti tərəfindən vəzifəyə təsdiq edilir. İnstitutun struktur bölmələrinin rəhbərləri, baş elmi işçilər, aparıcı və böyük elmi işçilər Elmi Şura tərəfindən gizli səsvermə yolu ilə seçilirlər.

6.15. İnstitutun yardımçı qurumlarının rəhbərləri İnstitut direktoru tərəfindən vəzifəyə təyin edilirlər.

6.16. İnstitutun struktur bölmələri elmi və elmi-təşkilati fəaliyyətləri barədə İnstitutun Elmi Şurası qarşısında hesabat verirlər.

6.17. İnstitutun rəhbərliyi elmi tədqiqatların və alınan nəticələrin keyfiyyəti üçün cavabdehlik daşıyır, elmi kollektivin yaradıcılıq imkanlarının həyata keçirilməsi üçün tədbirlər görür və öz fəaliyyəti haqqında Elmi Şurada hesabat verir.

## 7. İNSTİTUTUN ƏMLAKI VƏ MALİYYƏ FƏALİYYƏTİ

7.1. İnstitutun mülkiyyətində binalar, qurğular, mənzillər, avadanlıqlar, inventarlar, pul vəsaitləri, səhmlər, digər qiymətli kağızlar və bu Nizamnamə ilə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.

7.2. İnstitutun maliyyələşdirilməsi aşağıdakı mənbələr hesabına həyata keçirilir:

7.2.1. dövlət büdcəsindən maliyyələşdirmə;

7.2.2. Azərbaycan Respublikasının dövlət proqramları və elmi fondların qrantları üzrə aparılan tədqiqatların məqsədli maliyyələşdirilməsi;

7.2.3. beynəlxalq təşkilat və fondların qrantları və maliyyə yardımları;

7.2.4. təsərrüfat müqavilələrindən alınan vəsait;

7.2.5. profilinə uyğun və qanunvericiliklə müəyyən edilmiş sahibkarlıq fəaliyyəti nəticəsində əldə olunmuş vəsaitlər;

7.2.6. könüllü ianə və paylar nəticəsində alınan vəsaitlər;

7.2.7. ödənişli kadr hazırlığından əldə olunan vəsait;

7.2.8. təsis etdiyi müəssisələrin fəaliyyəti nəticəsində əldə olunan gəlirlər;

7.2.9. Azərbaycan Respublikası qanunvericiliyinə və AMEA Nizamnaməsinə zidd olmayan digər mənbələr.

7.3. İnstitut öz maliyyə vəsaitlərindən, bütün əmlakından və intellektual fəaliyyətinin nəticələrindən Azərbaycan Respublikasının qanunvericiliyinə, AMEA-nın Nizamnaməsinə və öz Nizamnaməsinə əsasən istifadə edir.

7.4. İnstitut Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada öz fəaliyyətinin məqsədlərinə və əmlakın təyinatına müvafiq olaraq öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.

7.5. İnstitut istifadəsində olan dövlət əmlakının saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi, habelə öz öhdəlikləri üçün məsuliyyət daşıyır.

7.6. İnstitutun hesabına daxil olmuş məqsədli vəsait başqa istiqamətlərdə xərclənə bilməz.

7.7. İnstitut qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə, statistik və sair hesabatlar tərtib edir və dövlət orqanlarına təqdim edir.

## 8. İNSTİTUTUN FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ

8.1. İnstitutun fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşmə, qoşulma, ayrılma, çevrilmə) və ləğv edilməsi yolu ilə xitam verilir. İnstitutun fəaliyyətinə xitam verilməsi, bu barədə AMEA Rəyasət Heyətinin təklifi ilə AMEA-nın Ümumi yığıncağının qərarına əsasən və ya mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər əsaslarla və qaydada həyata keçirilir.

8.2. İnstitutun fəaliyyətinə xitam verilməsi haqqında qərara əsasən ləğvetmə komissiyası yaradılır. Bu andan İnstitutun idarəçiliyi ilə əlaqədar bütün səlahiyyətlər ona keçir. Ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. İnstitutun ləğvi zamanı büdcə ilə hesablaşmalar və kreditorların tələbləri ödənildikdən sonra qalan əmlak qanunvericiliklə müəyyən olunmuş qaydada Nizamnamə məqsədlərinə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir. İnstitutun ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına əsasən həyata keçirilir.

## 9. DİGƏR ŞƏRTLƏR

9.1. Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir.

9.2. Gələcəkdə bu Nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tətbiq edilir.

9.3. İnstitutun maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və həmin ilin 31 dekabrında başa çatır. Növbəti maliyyə ili yanvar ayının 1-dən başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir.